**KÖNÜL HƏSƏNOVA**
*Bakı Dövlət Universiteti*

# "KİTABİ-DƏDƏ QORQUD"DA TƏPƏGÖZ ARXEOTİPİ

"Kitabi-Dədə Qorqud" eposunda əski təsəvvur və etiqadları, türk eposçuluğu ənənələrini daşıyan süjetlərlə yanaşı, əski qəhrəman arxeotipini əks etdirən süjet, motiv və obrazlar da vardır. Onlar eposun tədqiqinin hələ ilk dövründən araşdırıcıların diqqətini cəlb etmiş, müxtəlif dövrələrdə ayrı-ayrı tədqiqatçılar müəyyən onlarla bağlı mülahizələr irəli sürmüşlər. "Kitabi-Dədə Qorqud" dastanının mövzu və məzmunu barədə, onun əski dünyagörüşlərini əks etdirməsi barədə müəyyən fikirlər söylənmişdir. Onlar zaman kedikçə daha da dərinləşmiş, yeni fərziyyə və faktlarla zənginləşmiş, lakin vahid bir nəticənin əldə edilməsi hələ mümkün olmamışdır.

"Kitabi-Dədə Qorqud"da özünü göstərən belə arxaik qəhrəman tipləri içərisində obrazların tarixi qruplaşması geniş və əhatəlidir. Belə ki, günümüz üçün eposun bir sıra süjetləri tam arxaikdir. Oğuz həyat və məişətinin, dövlətçiliyinin arxaik hökmdarı Bayandır xan, qoşun başçısı Qazan bəy, oğuz bəyləri, ozan obrazının ən qədim arxeotipi Dədə Qorqud, Qanturalı və onun sevgilisi Sarı donlu Selcan xatun və başqaları eposun arxaik qəhrəman arxeotipləri qrupuna məxsusdur. Onların bir çoxunun eposdakı yeri, mövqeyi ilə yanaşı, tarixi qaynaqlarla bağlılığının əsas və başlıca istiqamətləri dürüstləşdirilməmişdir. Bütün bunlar gələcək tədqiqatların obyekti ola bildiyi kimi, eposdakı daha qədim dövrün arxaik qəhrəman arxeotipləri olan Təpəgöz və Dəli Domrul barədə aparılan araşdırmaların yekunlaşdırılmasına da təbii ki, ehtiyac vardır.

Araşdırıcılar bu obrazlar ətrafında çalışmalar aparmış, onların bir sıra tarixi köklərini, yaranma səbəblərini açıqlamağa çalışmışlar. Lakin dünya eposunda müxtəlif adlar altında tanınan Təpəgözün bir bədii obraz kimi araşdırılıb başa çatdığını söyləmək olmaz. Folklor tədqiqatçısı A.Nəbiyevin yazdığı kimi, "Kitabi-Dədə Qorqud"un etnik düşüncə ilə bağlı yaranmış zəngin və güdrətli obrazları içərisində elmi fikri uzun illərdən bəri məşğul

edən bir fenomenal obraz vardır. Bu, ayrı-ayrı xalqların eposçuluğu və peşəkar nağılçılığında Təpəgöz, Siklop, Polifen kimi tanınmış Təpəgözdür. Bu obraz haqqında istər Şərq, istərsə də Qərb elmində xeyli araşdırmaların aparılmasına baxmayaraq, onun nə vaxt, harada yarandığının, hansı mənşəyə malik olduğunun öyrənilməsinin başa çatdığına hökm vermək hələ mümkün deyildir" (4, s. 3-4).

Eyni mülahizəni "Kitabi-Dədə Qorqud"un başqa bir obrazı – Dəli Domrul barədə də söyləmək olar. Bu obraz da tədqiqatçıların fikrini az məşğul etməmişdir. Dəli Domrul da eposda Təpəgöz kimi qorqudşunasların diqqət mərkəzində dayanmış, onunla bağlı müxtəlif mülahizələr irəli sürülmüşdür. Bir sıra tədqiqatçılar "Dəli Domrul" boyunun abidəyə sonradan əlavə edildiyini göstərirlər. Çünki dastanın o biri boylarındakı arxaik obrazların bir çoxu, lap elə Bayandır xan, Salur Qazan, Söklü Məlik, Baybörə, Baybican və başqalarını, süjetdə Dəli Domrul qədər arxaik görə bilmirik (1, s. 127). Dəli Domrulla bağlı sonralar bir-birini təkzib edən fikirlər və tədqiqatlar da az olmamışdır.

Dəli Domrulun bədii obraz kimi dastanda yeri Təpəgöz qədər maraq doğurur. Onun hansı görüşləri əks etdirməsi, islamdan əvvəlki, ya sonrakı yaranış dövrünün obrazı olması hələ dürüstləşdirilməmişdir. Lakin Təpəgöz kimi Dəli Domrul da bu gün eposda mühüm yer tutan surətlərdən biri kimi əhəmiyyətlidir. Bu surətlərin həm eposun özündə, həm qorqudşünaslıq ədəbiyyatında diqqət mərkəzində olduğunu nəzərə alaraq onların hər birini ən qədim qəhrəman arxeotipi kimi təhlilə cəlb etmək vacibdir.

Təpəgöz obrazına "Kitabi-Dədə Qorqud"un yalnız bir boyunda – "Basat Təpəgözü öldürdüyü boyu bəyan edər, xanım, hey!"də təsadüf edirik. Bu boy əslində Təpəgözün ana bətninə düşməsindən başlayaraq ölümünə qədər bütün həyatını əhatə edir. İstər yunan eposunda, istərsə Təpəgöz, Siklop və Polifemlərlə bağlı bizə gəlib çatan digər bilgilərdə Təpəgözün ikinci belə geniş avtobioqrafiyasına təsadüf etmirik. Ə.Sultanlının yazdığı kimi, "Dədə Qorqud" boyları Təpəgözün anadan olmasından ölümünə gədərki həyatını əks etdirən yeganə ədəbi qaynaqdır. Doğrudan da Təpəgözlə bağlı gəlib çatan Şərq və Qərb qaynaqlarına diqqət yetirəndə məlum olur ki, həqiqətən "Dədə Qorqud" hekayəsi nəinki Təpəgözü daha mükəmməl

şəkildə əvvəldən axıra kimi əks etdirən, həm də onun bir sıra mənşə xüsusiyyətlərini özündə saxlayan bir qaynaqdır.

"Dədə Qorqud" hekayəsi kiçik bir istisna – Aruz qocanın köc zamanı düşüb qalan və aslanın aparıb böyütdüyü Basatın tapılması və oğuza qaytarılması epizodu istisna olunmaqla, Təpəgözün dünyaya gəlməsi, - daha doğrusu, ana bətninə düşməsi ilə başlayır.

"...Oğuz bir gün yaylağa köçdi. Aruzın bir çobanı vardı. Qonur qoca Sarı çoban deərlərdi. Oğuzın ögincə bundan əvvəl kimsə köçməzdi. Uzun binar diməklə məşhur bir binar vardı. Ol binaru pərilər qonmuşdu. Nagahandan qoyun ürkdi. Çoban ərgəcə qaqdı ilərü sürdü. Gördü kim, pəri qızları qanat-qanada bağlanmışlar, uçarlar. Çoban kəpənəgini üzərlərinə atdı. Pəri qızının birini tutdı. Təmə edib, dərhal cima eylədi. Qoyun ürkməgə başladı. Çoban qoynun öginə çəgirtdi. Pəri qızı qanat uzub uçdı. Aydır: "Çoban, yil tamam olıcaq məndə əmanətin var, gəl al!"- dedi. - Əmma oğuzun başına zaval gətirdin!" – dedi (3, s. 98).

Bu, Təpəgöz barədə qaynaqların heç birində təsadüf olunmayan və Təpəgözün ana bətninə düşməsini əks etdirən, çox vacib və dəyərli bir məlumatdır. Onu da deyək ki, bu mənşə xüsusiyyəti ilə bağlı məlumatdan Təpəgöz tədqiqatçılarının bizə məlum olanlarından heç biri demək olar ki, istifadə etməmişdir. Məsələyə yalnız folklorşunas A.Nəbiyevin "Kitabi-Dədə Qorqud"da Təpəgöz fenomeni» məqaləsində ilk dəfə diqqət yetirilmişdir ki, aşağıda həmin qaynağa yeri gəldikcə istinad edəcəyik.

Hekayətin ikinci vacıb və dəyərli hissəsi Təpəgözün dünyaya gəlməsi, tapılması və övladlığa götürülməsi epizodlarıdır. Bu epizodlara da yenə dünya eposunda yalnız "Kitabi-Dədə Qorqud"da təsadüf olunur. Onlara da diqqət yetirmədən təbii ki, Təpəgözün mövcud olduğu qaynaqları öyrənmək olmaz. Ən başlıcası isə onun insan mənşəli olub-olmadığını müəyyən etməkdir. Bir çox əlamətlər Təpəgözün insan mənşəli olmasını kölgədə qoyur, onun yad olan qəliblərini açıqlayır. Bütün bunlara aydınlıq gətirmədən Təpəgöz varlığının əsl mahiyyətinə varmaq, onun mənşə xüsusiyyətlərini üzə çıxarmaq əslində mümkün deyildir. Mətnə diqqət yetirək:

"...Zəmanla Oğuz genə yaylağa köçdi Çoban genə bu binara gəldi. Yenə qoyun ürkdi. Çoban ilərü vardı. Gördi kim, irəlidə bir yığnağ yatur, yıldır-yıldır yıldırır. Pəri qızı gəldi. Aydır: "Çoban, əmanətini gəl, al! Əmma

Oğuzun başına zəval gətürdün!"- dedi. Çoban bu yığnağı görçək ibrət aldı. Gerü döndü. Seyran taşına tutdı. Urduqça böyudi. Çoban yığnağ qodı, qaçdı; qoyun ardına düşdi.

Məgər ol dəm Bayandır xan bəğlər ilə seyrana getmişdilərdi. Bu binarın üzərinə gəldilər. Gördülər kim, bir ibrət nəsnə yatur, başı-göti bəlursız. Cevrə aldılar. Endi bir yigit bum dəpdi. Dəpdikcə böyüdi. Bir qac yigit dəxi endilər, dəpdilər. Dəpdiklərincə böyüdi. Aruz qoca dəxi enib dəpələdi, mahmuzı toxundı. Bu yığnaq yarıldı, içindən bir oğlan çıqdı. Gödəsi aulam, dəpəsində bir gözi var. Aruz aldı bu oğlanı, ətəginə sardı. Aydır: "Xanım, munı mana verin, oğlum Basatla yaşlıyayın!" – dedi (3, s. 98-99).

Bu epizodlar dünya Təpəgözü üçün yeni faktlardır. Başqa qaynaqlarda belə qeyri-adi doğuluş yoxdur, bu, yalnız Təpəgözə məxsus doğuluşdur, insan övladının doğuluşundan tamam fərqlidir. Təpəgözün üçüncü epizodu da insan mənşəli deyildir. Yalnız Təpəgözə məxsus bu xüsusiyyətə başqa qaynaqların heç birində təsadüf olunmur. Təpəgöz burada dünyanın bir sıra mifik qüvvələrindən –divlərdən, əjdahalardan və qeyri-insan mənşəli varlıqlardan dəhşətlidir. Təpəgöz belə bir varlıq olduğundan çox keçmədən Aruz onu evdən qovur. Bu vaxt, Təpəgöz neçə yaşında idi, onun tapılmasından neçə il keçirdi, bunlar epizodda aydınlaşmır. Günbəgün, saatbasaat böyüyən Təpəgözün qeyri-insan mənşəli olmasını təsdiqləyən bu böyümə üzərində də dayanmağa xüsusi ehtiyac vardır. Mətnə diqqət yetirək:

"...Aruz Təpəgözü aldı, evinə gətürdi Buyurdu, bir dayə gəldi. Əmcəgini ağzına verdi. Bir sordı, olanca südin aldı. İki sordı, qanın aldı, üç sordı, canın aldı. Bir qac dayə gətürdilər, həlak etdi. Gördülər olmaz, "süd ilə bəsliyəlim"- dedilər. Gündə bir qazan süd yetməzdi. Bəslədilər, böyüdü, gəzər aldı. Oğlancığlarla oynar oldı. Oğlancığlardan kiminün burnun, kiminün qulağın yeməgə başladı. Əlhasili, ordı, bunun ucından qatı incindilər. Aciz qaldılar. Aruza şikayət edib ağlaşdılar. Aruz Təpəgözü dögdi-sögdi, yasaq eylədi, əsləmədi, axır evindən qovdu" (3, s. 99).

Təpəgözü evdən qovmaqla iş bitmədi. Oğuzda vəziyyət daha da gərginləşdi. "Dədə Qorqud" hekayətinin dördüncü epizodu da onun qeyri-insan mənşəli olduğunu göstərir:

"...Təpəgözin pəri anası gəlüb oğlanın parmağına bir yüzük keçirdi. "Oğul, sana ox batmasun, tənüni qılıç kəsməsün!- dedi. Təpəgöz Oğuzdan

çıqdı, bir yuca tağa vardı. Yol kəsdi, adam aldı, böyük hərami oldı. Üzərinə bir qaç adam göndərdilər. Ox atdılar, batmadı. Qılıç uzdilər, kəsmədi. Süğüylə sancdılar, ilmədi. Çoban-çoluq qalmadı, həb yedi. Oğuzdan dəxi adam yeməgə başladı. Oğuz yığılıb üzərinə vardı. Təpəgöz görüb, qaqdı. Bir ağacı yerindən qopardı. Atub əlli-altmış adam həlak elədi. Alplar başı Qazana zərb urdı,- dünya başına tar oldu" (3, s. 99).

Göründüyü kimi, Təpəgözün oğuzdan çıxıb ona qənim kəsilməsi, adam yeməsi, eli məhv etmək təhlükəsi yaratması bu süjetin yalnız oğuz variantına məxsusdur. Onun bu adam yeyənliyinin qarşısını ala bilən güc hələ oğuz cəmiyyətində yox idi. Deməк, Təpəgöz insan gücünün fövqindədir, qeyri-insan mənşəlidir, onun ölüm sirri oğuza hələ məlum deyildir. Belə olmasaydı Təpəgözlə döyüşlərdə oğuzun Qaragünə, Dözən oğlu Alp Rüstəm, Uşun Qoca oğlu, Dəmir Tonlı Mamaq, Bəgdüz Əmən və onlarla başqa qəhrəmanı ölməzdi. Elə buna görə də növbəti epizodda da Təpəgözün yeni bir keyfiyyəti ilə tanış oluruq. Dədə Qorqud onunla danışığa gedir ki, razılığa gəlsinlər. Mətnə diqqət yetirək:

"...Dədəm Qorqudu Təpəgözə göndərdilər. Gəldi, səlam verdi. Aydır: "Oğul, Təpəgöz, Oğuz əlində zəbun oldu, bunaldı. Ayağın torpağına məni saldılar. Sana kəsim verəlim, deirlər"-dedi. Təpəgöz aydır: "Gündə altımış adam verin yeməğə!"- dedi. Dədə Qorqud aydır: "Bu vəchlə sən adam qomaz, dükədərsən, - dedi, - əmma gündə eki adam ilə beş yüz qoyun verəlim!" – dedi.

Dədə Qorqud böylə degəc Təpəgöz aydır: "Xoş, öylə olsun! Əvət həm mana eki adam verin, yeməgüm bənim bişürsün, mən yiyəyim!! – dedi (3, s. 98).

Bütün bu epizodlarda gördüyümüz hal və xüsusiyyətlər bizə məlum Təpəgözlərin heç birində yoxdur.

F.Dits burada Təpəgözlə Polifemi müqayisə etmişdir. Belə müqayisə müxtəlif araşdırıcılar tərəfindən aparılmışdır və onların bir çoxu bu gün həddən artıq mübahisəli, bəzən də əsassız görünür. Məsələn, Ə.Sultanlının öz dövrü üçün yeni olan tədqiqatında Polifemlə Təpəgözün müqayisəsi bu gün müxtəlif məqamlarda etiraz doğurur (5, s. 45-46). Bu obrazları mənşə etibarı ilə birləşdirən cəhətlər nə qədər üzdədirsə, ayıran xüsusiyyətlər də az deyildir. Bəlkə də elə bu xüsusiyyətlərə görə Təpəgözlə Polifem eyni mənşə

xüsusiyyətinə malik olsalar da həm təbiəti, həm də cəmiyyətdəki mövqe etibarı ilə fərqli surətlərdir. Təpəgözün avtobioqrafiyası daha genişdir, o özünün dünyaya gəlməsindən tutmuş, həyatının demək olar ki, bütün dövrləri barədə hekayətində müəyyən izlər qoymuşdur. Oğuza Təpəgöz qəfildən gəlib çıxmamışdır. Bir göndərilən fəlakət kimi – pərinin dediyi kimi – gəlmişdir, ölümünə qədər həmin funksiyanı həyata keçirir. Amma bunu Polifem haqqında demək olmaz. Bu iki obrazı üz-üzə qoyub müqayisə edəndə onları bir-birinə qovuşduran və ayıran paralellər üzə çıxır. Məsələn, Təpəgöz qeyri-insan mənşəli məxluqdur – Pəri qız tərəfindən cəmiyyətə gətirilmişdir və güman ki, o səma mənşəlidir. Pərilərin insan övladı ilə izdivacına ancaq epik təsəvvürdə - mif, nağıl, əfsanə və eposlarda təsadüf olunur. "Dədə Qorqud"dakı Təpəgözü dünyaya gətirən tərəfin birinci pəri qütbü kimi, ikinci Sarı Çoban qütbündə də insan mənşəliyindən kənar qəliblər nəzərə çarpır. Bu məsələdən bəhs edən folklorşünas A.Nəbiyev yazır: "M.H.Təhmasib Ə.Abidə istinadən Dəvadari əfsanəsində Təpəgözün anasının Böyük dəniz cinlərindən, atasının isə böyük başlı bir adam olduğunu qeyd edir. Yəni o qədər böyük başlı ki, on üç qoyun dərisindən papaq geyərmiş" (4, s. 2-3).

M.H.Təhmasibin Ə.Abidə istinadən haqqında bəhs etdiyi qaynaq vaxtı ilə türk tədqiqatçılarının F.Ditsin öz adına çıxdığı "Uluxan Ata Pitikçi" adlı əlyazması – oğuznaməsində əks olunmuşdur. Əvvəla, biz də F.Əlimirzəyeva-nın belə bir fikri ilə tam şərikik ki, uzun illər Prussiyanın İstanbulda səlahiyyətli elçisi olan F.Dits kiminsə əlyazmasını öz adına çıxmazdı, görünür 1814-cü ildən sonra İstanbulda əldə etdiyi əlyazma elə Ditsə məxsusdur. Orada Təpəgözlə bağlı verilən məlumatlar bu obrazın daha qədim bir mənşəyə malik olduğunu göstərir. Aşağıdakı məlumat isə bu obrazla bağlı Qafqazda yayılan rəvayətlərlə yaxından səsləşir. F.Əlimirzəyeva yazır ki, "...Bu Təpəgöz türklər arasında şərəfli və igid kimi tanınmış Uruz (Aruz) oğlu Basat adlı gənc bir qəhrəman tərəfindən öldürülmüşdür. Buna da yenə bir qızın qoyduğu şərt səbəb olmuşdur. Bu qızı at sürəndə Uruz (Aruz) oğlu Basatdan başqa heç kim məğlub edə bilməmişdi. Basat bu qızı məğlub edib, onunla evləndi. Basatın atası Uruza oğlunun qızı məğlub etməsi barədə sual verildikdə: "Sanki oğlum Təpəgözü öldürmüş kimi danışırsız" demişdir. Basat adlı gənc bunu eşitdikdə bir tədbir ilə Təpəgözü öldürdü. Basatla Təpəgöz arasında ağılasığışmayan hadisələr baş vermişdir. Sarı Çobanın qeyri-insani

ölçüləri barədə də bilgi verən "Bitikçı oğlunun "kitabıdır". Bizə də belə gəlir ki, bu Ditsə məxsus, Drezden nüsxəsindən müəyyən fərqlərlə seçilən, daha qədim oğuz həyatını özündə əks etdirən əlyazmasıdır. F.Ditsin Təpəgözlə müqayisə etdiyi yunan Polifemi isə əslində şərq mənşəli azmandan çox zəif məxluqdur. Bu, onun mənşə xüsusiyyətinin qədimliyində,- pəri qismi ilə bağlılığında, onun barmağına keçirilən üzüyun sehrində, özünün qeyri-adi doğuluşunda, insan əti yeməsində və s. təzahür edir.

Təpəgözün Polifemlə ümumi cəhətləri də nəzərə çarpacaq dərəcədədir. Polifem də səma mənşəlidir. O, Ə.Sultanlının yazdığı kimi, "Zevsin qardaşı Poseydonun su pərisi Amsitriti ilə münasibətindən doğulmuşdur və Poseydonun oğludur. Polifem də Təpəgöz kimi insan əti yeyir, amma o, daha şərt qoyub gündə iki insan istəmir, yalnız Odisseyin əlindən hirslənəndə onun yoldaşlarını yeyir. Polifem də Təpəgöz kimi adamları iki-iki yeyir» (2, s. 122-143). Nəhayət bu obrazların hər ikisinin canı onların gözlərindədir. Hər ikisi yalnız gözü kör edildikdən sonra məğlub edilir.

Təpəgöz yer mənşəli deyildir. A.Nəbiyev haqlı olaraq Təpəgözü yad planet mənşəli hesab edir. Bunun üçün bir sıra faktlara müraciət edir. Onların müqayisəsində ingilis antropoloquna əsaslanıb belə bir qənaətə gəlir ki, hətta yad planetlilərin ana bətnindəki dövrü də Pəri qızın yad mənşəli olduğunu söyləməyə əsas verir. Belə arqumentlərin sayını artırmaq mümkündür. Müxtəlif süjetlərdə Təpəgöz, Siklop, Polifemlərin həyat tərzinin müşahidəsi də maraq doğurur. Məsələn, Polifemin dünyaya gəlisi və gözü çıxarıldıqdan sonrakı həyatı yunan eposunda mövcud deyildir. Yəni yunan düşüncəsi üçün Polifem genetik baxımdan köklü obraz deyildir. Gəlmədir, yaxud yenidir. Çünki yunan estetik düşüncəsi üçün o, kənardan gəlmədir. Bu isə Təpəgözü daha geniş şəkildə araşdırmağı gündəmə gətirir.

## ƏDƏBİYYAT

1. Бартольд В.В. Турецкий эпос и Кавказ. «Книга моего деда Коркута». М.-Л., 1962.
2. Гомер. Одиссея. Баку, 1977.
3. «Kitabi-Dədə Qorqud» nəşrə hazırlayan F.Zeynalov, S.Əlizadədir. Bakı, 1988.

4. Nəbiyev A. «Kitabi-Dədə Qorqud»da Təpəgöz fenomeni. «Azərbaycan» qəz., 1999, 27-28 may
5. Sultanlı Əli. «Kitabi-Dədə Qorqud» və qədim yunan dastanları (təkrar nəşr). Bakı: Elm, 1999.

**К.К.Гасанова**

**Археотип Тепегёза в «Китаби-Деде Коркут»**
**Р Е З Ю М Е**

В представленной статье рассматривается археотип Тепегёза в «Китаби-Деде Коркут», его происхождение и основные особенности. Здесь берётся в основу теоретическая мысль о его чужеродном происхождении и ведётся исследование на основе новых фактов.

**K.K.Gasanova**

**Tepegyoz archeotype in "Kitabi-Dede Gorgud"**
**S U M M A R Y**

Kitabi-Dede Gorgud's Tepegyoz archetype, its sources and main characteristics are researched in submitted article. Theoretical visions about its alien roots are taken as a basis and research activities conducted on the basis of new facts.